# Türkiyə-Azərbaycan qardaşlığı

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Ölkə Prezidenti İlham Əliyev bütün diplomatik görüşlərdə ölkəmizin qardaş Türkiyə ilə daim birgə olduğunu onun xarici siyasət kursunu dəstəklədiyini bəyan edir. Bu siyasət, özünə inanan və potensialına güvənən siyasi liderlərə məxsus keyfiyyətdir, ümumilikdə, Azərbaycanın mövqeyini, gücünü, beynəlxalq münasibətlər sistemində yerini göstərən inamlı addımdır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dünya diplomatiya tarixinə yazılan açıq, səmimi və milli maraqlara əsaslanan siyasət nümunəsidir. Azərbaycan və Türkiyənin qardaşlıq münasibətləri bütün dünya üçün nümunədir.

Sevindirici haldır ki, tarixən bu iki dövlət arasındakı münasibətlərə heç bir qüvvə mane ola bilməyib. Tarixin çətin sınaqlarında, kritik durumlarda belə ölkələr arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərib.



Azərbaycan-Türkiyə münasibətləri, eyni zamanda, NATO ilə əməkdaşlıq sənədləri, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr çərçivəsində NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir, hərbi kadrların hazırlanması, maddi-texniki təchizat, müdafiə sənayesi sahələrində yeni birgə əməkdaşlıq uğurla davam etdirilir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Türkiyə dövləti daim Azərbaycanın haqlı tələblərini ardıcıl müdafiə etmiş, mütəmadi olaraq Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxması tələbi ilə çıxış edərək, ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində səylər göstərmişdir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. İnanırıq ki, Azərbaycan - Türkiyə həmrəyliyi, birliyi nəticəsində həm terrorun kökü birdəfəlik kəsiləcək, həm də Ermənistan, onun havadarları tərəfindən Qarabağ işğalına birdəfəlik son qoyulacaq. "Bir millət, iki dövlət"in qar-daşlığı, müttəfiqliyi hələ çox zəfərlərə imza atacaq.

Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyincə, bu ölkə ilə hər hansı bir diplomatik əlaqələrdən və ya sərhədlərin açılmasından söhbət gedə bilməz.

Azərbaycan dünyada iri infrastruktur layihələrinin reallaşdırılmasında böyük təcrübəsi olan dövlət kimi tanınır. İndi elə layihələr var ki, onların reallaşdırılmasında Azərbaycanla məsləhətləşmələr aparılır. Bu da ondan xəbər verir ki, Azərbaycan təkcə regionda deyil, eyni zamanda, dünyada söz sahibidir. İqtisadiyyatın inkişaf tempinə görə Azərbaycanın lider dövlət olması, həm də ölkəmizin dünyada ən islahatçı dövlət adlandırılması əlaqələrimizi daha da genişləndirib. Bu baxımdan Azərbaycan Türkiyə, Türkiyə isə Azərbaycana bağlı dövlətdir. Nüfuzlu beynəlxalq qurumların tədbirlərində də iki qardaş ölkənin nümayəndələrinin bir-birilərinə dəstək verməlıri, mövqelərini müdafiə etmələri yüksək qiymətə layiqdir. Bütün bunlar bir daha təsdiqləyir ki, Türkiyə-Azərbaycan "bir millət, iki dövlətdir".

Türkiyə-Azərbaycan əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Bu inkişafın qarşısını heç bir qüvvə ala bilməz. Çünki "Can Azərbaycanın kədəri bizim kədərimiz, sevinci sevincimizdir! Ortaq tariximizi, dilimizi, dinimizi və mədəniyyətimizi paylaşdığımız Azərbaycanın daima yanındayıq" deyir qardaş Türkiyə.

Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

Bu gün Azərbaycan və Türkiyəni bir-birinə bağlayan strateji layihələr fəaliyyət göstərir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz kəmərləri və Bakı - Tbilisi - Qars dəmir yolunun reallığa çevrilməsi hazırda bu iki qardaş xalq arasındakı əlaqələrin möhkəmliyini daha da artırmaqdadır. Ən əsası, Azərbaycan-Türkiyə əlaqələri bütün türk dünyası üçün də mühüm rol oynayır və türkdilli dövlətlər arasında münasibətlərin inkişafına da güclü təsir göstərir.

Ölkələrimiz arasında əlaqələrin inkişaf səviyyəsi regional tərəqqiyə mühüm töhfələr verir.

Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Ölkələrimiz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstərir.

Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni - bütün sahələrdə bu əlaqələr artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır.

Bütün bunlar, ölkələrimiz arasında əldə olunan yeni razılaşmalar, imzalanan müqavilələr bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

## Vətən müharibəsi şəhidləri polkovnik-leytenant Abdurahmanov Əfqan Ağasəf oğlu və əsgər Bayramov Coşqun Ənvər oğlunun doğum günü ilə əlaqədar anım tədbiri keçirilmişdir

Bu gün Qarabağı işğaldan azad edərək xalqımıza qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən igid Vətən oğullarından olan Əmirvan kənd sakini şəhid Əfqan Abdurahmanov və Kiçik Əmili kənd sakini Coşqun Bayramovun doğum günüdür. Bu münasibətlə Qəbələ rayon İcra Hakimiyyətinin, Təhsil şöbəsinin əməkdaşları, şəhidlərin təhsil aldığı məktəblərin kollektivi və ailə üzvləri onların məzarını ziyarət etmiş, xatirələrini böyük ehtiramla anaraq məzarları üzərinə gül dəstələri qoymuş, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin ailə üzvləri övladlarının qəhrəmanlığı ilə fəxr etdiklərini bildirmiş, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmişlər.





## Vətən müharibəsi şəhidi Ruslan İdrisovun doğum günü ilə əlaqədar anım tədbiri keçirilmişdir



Bu gün Vətən müharibəsində canından keçərək şəhidlik zirvəsinə ucalmış Qəbələ gənclərindən biri - Qəmərvan kənd sakini İdrisov Ruslan Qabil oğlunun doğum günüdür. Bu münasibətlə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, şəhidin təhsil aldığı məktəbin kollektivi və ailə üzvləri şəhid Ruslan İdrisovun məzarını ziyarət etmiş, xatirəsini böyük ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoymuş, ruhuna dualar oxunmuşdur.

Şəhidin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

## Şəhid yadigarları

Şəhidlik - vətənpərvərliyin ən ali məqamıdır. Bu məqama yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Onlar vuruşub dönməməyi seçdilər. Onlar bizə vətəni sevməyi, sözdə yox, əməldə göstərdilər. Şəhidlər bizə azadlığın verilmədiyini, alındığını sübut etdilər. Şəhidlər üzərində gəzdiyimiz, tapdaladığımız qara torpağın necə müqəddəs olduğunu bizə anlatdılar. Şəhidlər düşmən əlində inləyən obanın, bağrı yaralı Qarabağımızın harayını bizə çatdırdılar.

*Sən, ey şəhid övladı,*
*Boynunu bükmə qəti,*
*Çünki heç bükülmədi*
*Atanın şux qaməti.*

Şəhidlər vətən uğrunda can qoydular ki, övladları firavan yaşasın. Onlar artıq heç bir körpə qatil gülləsinə qurban getməsin deyə öz canlarını sipər etdilər. Bu gün artıq bütün uşaqlar firavandır, şəndir, xoşbəxtdir. Amma bu uşaqların içərisində bəziləri də var ki, onlar hələ də ata yolu gözləyir, atalarının hələ də bir gün gələcəyini ümid edirlər. II Qarabağ savaşında elə igidlərimiz oldu ki, onlar dünyaya göz açacaq övladlarını belə görmədən şəhidlik zirvəsinə ucaldılar. Bu savaşdan sonra bir uşaq pəncərədən ata yolu gözlədi, bir uşaq atasının məzarını qucaqlayaraq "ata, dur evimizə gedək" - deyərək, göz yaşları quruyanadək ağladı, bir uşaq atasının şəklini qucaqlayaraq yatdı... Və bu kimi saymaqla bitməyən görüntülər əbədiyyən yaddaşımıza yazıldı...

**(Ardı 6-cı səhifədə).**